# ƏSRƏ BƏRABƏR ÖMÜR

**Ötən ilin son günü ölkə ictimaiyyəti Azərbaycan elminin patriarxı, görkəmli ictimai xadim, böyük pedaqoq və ali təhsilin təşkilatçısı, İkinci Dünya Müharibəsi veteranı İsmayıl Əli oğlu İbrahimovun doğum gününü qeyd etdi. Bu parlaq şəxsiyyət XX əsrdə Azərbaycanın sosial-iqtisadi inkişafına misilsiz töhfələr vermiş, böyük mütəxəssislər və davamçılar ordusu yetişdirmiş yaradıcı ziyalılar arasında özünəməxsus yer tutur.**



İstedadlı insan İsmayıl İbrahimovun keçdiyi uzun, keşməkeşli həyat yolu heç də asan olmamışdır. O, iki yaşında ikən atasını itirmiş və tələbə qardaşının himayəsində qalmışdır. Lakin aclığa və məhrumiyyətlərə düçar olan İsmayılın elmə, biliyə meyili həddsiz idi. Təhsil almaq üçün 1935-ci ildə Azərbaycan Sənaye İnstitutunu - Neft-Kimya İnstitutunu seçərək öz taleyini onunla əbədi bağladı. İyirmi il rektor kimi rəhbərlik etdiyi təhsil müəssisəsinin taleyi bu şəxsiyyətin adı ilə bağlı oldu.

"Mənim xoşbəxtliyim ondadır ki, çox əziyyətlərdən keçmişəm, lakin onları keçərək, xoşbəxt həyat yaşamışam" ifadəsi bu yaxınlarda yüz yaşlı yubilyarımız tərəfindən səsləndirilib. Bu həyat son dünya müharibəsində Vətənin müdafiəsini, Respublika Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində fəaliyyətini, uzun illər Azərbaycan Uşaq Fondunun rəhbərliyini, eləcə də saysız-hesabsız xarici ezamiyyətləri də əhatə etmişdir. Lakin Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin bütün kollektivi və indiki rektor kimi mənim üçün İsmayıl İbrahimovun 1960 - 1970 və 1978 - 1988-ci illərdə təhsil müəssisəsimizə rəhbərlik etdiyi iki onillik səmimi xatirələrlə zəngin hərtərəfli tədqiqat obyektidir. Akademikin fəaliyyətini xarakterizə edərkən "ilk dəfə" sözünün tez-tez işlədilməsi xüsusi olaraq diqqəti cəlb edir.

1941-ci ilin fevralında İsmayıl İbrahimov nəzarət-ölçü cihazları və avtomatika üzrə Azərbaycanın ilk diplomlu mühəndisi olub. 1946-cı ildə Sovet Ordusundan tərxis olunduqdan sonra o, Azərbaycan Sənaye İnstitutunun nəzarət-ölçü cihazları kafedrasına baş laborant kimi qayıdıb, bir ildən sonra isə həmin kafedranın assistenti və ilk azərbaycanlı müəllimi olub.

İsmayıl İbrahimov Azərbaycanda kibernetika, informatika və idarəetmə sistemləri elmi istiqamətlərinin banisidir. Fasiləsiz texnoloji proseslərin və istehsalatın riyazi modelləşdirilməsini, optimal idarə edilməsinin metodoloji əsaslarını məhz o hazırlayıb. O, neft emalının optimallaşdırılması məsələlərinin faktiki həyata keçirilməsi məqsədilə modellərin struktur və funksional xüsusiyyətlərini nəzərə alan səmərəli hesablama üsulları qurmuşdur.

Nazirlər Sovetində səkkiz il iş ərzində o, böyük alim və çalışqan təşkilatçı olaraq, idarəetmə üslubu və metodlarının təkmilləşdirilməsinə, Azərbaycan Respublikasının iqtisadiyyatının inkişafına böyük töhfələr vermişdir. O, respublikada elektronika, radio və cihazqayırma kimi elm tutumlu sahələrin təşkilinə, yeni sənaye texnologiyalarının yaradılmasına fəal köməklik göstərmiş, neft emalı və kimya sənayesi sahələrinin, maşınqayırma, enerji kompleksinin müasirləşdirilməsində yaxından iştirak etmişdir.

Ancaq onun ən böyük nailiyyətləri təhsillə, diplomlarını imzaladığı 35 min məzunun taleyi ilə bağlıdır. İsmayıl müəllim rəhbərlik etdiyi dövrdə neft sənayesi üçün kadrların hazırlanması üzrə Azərbaycan Neft və Kimya İnstitutu SSRİ və xarici ölkələrin ali məktəbləri arasında ən mühüm mərkəzlərdən birinə çevrilib. 1961-ci ildə neft profilli yeddi institutun fəaliyyət göstərdiyi Sovet İttifaqının ali məktəblərinin təcrübəsində ilk dəfə olaraq, ali neft, qaz və neft-kimya ixtisasları üzrə metodiki komissiya (sonradan Elmi-metodiki Şuraya çevriləcək) yaradılıb. İsmayıl İbrahimov bu komissiyanın və gələcəkdə Elmi-metodik şuranın sədri təyin olunub. Bu funksiyanı o, bu vəzifədə 27 il ərzində, ölkənin ali təhsil sistemində profilli elmi-metodik şuraların ləğv olunmasına qədər yerinə yetirmişdir. İmtahan dövründə elektron hesablayıcı maşınları tətbiq edən Azərbaycanda ilk və SSRİ-də üçüncü ali məktəb olan AZNKİ müəyyən vaxtdan sonra bu sahədə aparıcı yer tutub. Ali məktəbimizin təcrübəsi mərkəzi "Pravda" qəzetinin baş məqaləsində əks etdirilmiş, institutun bazasında isə ali məktəblərarası ümumittifaq konfransı keçirilmişdir. Elektron hesablayıcı maşınlar və iqtisadi-riyazi metodların tətbiqi əsasında xalq təsərrüfatının idarə edilməsi üzrə respublika komissiyasının sədri olaraq, İsmayıl İbrahimov xalq təsərrüfatının geniş miqyasda kompüterləşməsinin təməlini qoymuşdur.

Rektorun bilavasitə iştirakı ilə Azərbaycan dilində dərslik və dərs vəsaitləri ilə təminat problemi həll olunmuş, İttifaq nazirliklərinin qərarı ilə ilk dəfə olaraq iki təhsil-elm-istehsal kompleksi yaradılmışdır. Elmi tədqiqatların maliyyə həcmi iyirmi dəfə artmış, respublikamızın hüdudlarından kənarda olan müəssisələrlə əhəmiyyətli təsərrüfat müqavilələri imzalanmışdır.

İttifaq hökumətinin qərarı ilə SSRİ-də yeganə olan geologiya, neft emalı, neft və qaz sənayesi müəssisələrinin rəhbər işçiləri üçün sənaye təşkilatçıları fakültəsi məhz AZNKİ-də açılmışdı.

Vaxtı qabaqlayaraq, Bolonya prosesinin tətbiqindən iyirmi il əvvəl, tədris prosesini nizama salan, bütün kafedra və ixtisaslar üzrə metodiki sənədlər yaradılmışdır. Bu təcrübə SSRİ Ali Təhsil Nazirliyinin kollegiyasında müzakirə olunmuş və nəticədə AZNKİ-nin modeli əsasında tədris-metodiki komplekslərin məcburi yaradılması haqqında ittifaq sənədi qəbul edilmişdi.

İsmayıl müəllimin əzmkarlığı sayəsində, 1961-ci ildən başlayaraq, Sovet İttifaqında birincilər arasında burada xarici ölkələr üçün mühəndis və elmi kadrların hazırlığı başlayıb. Maraqlı bir fakt: ad günü ilə üst-üstə düşən Yeni il bayramını rektor həmişə xarici tələbələrlə birlikdə yataqxanada qeyd edirdi. İsmayıl İbrahimovun yetişdirmələri dünyanın yüzdən çox ölkəsinə səpələnmiş, orada məsul dövlət vəzifələri tutmuş və tutular, alim və görkəmli sənaye rəhbərlərinə çevriliblər. Amma onlar öz xeyirxahlarını - böyük ürək sahibi İsmayıl müəllimi bir an da olsun unutmurlar. Rektorun keçmiş tələbəsi, hazırda Anqolanın prezidenti Joze Eduardu Duş Santuş ilə səmimi dostluğunu yada salmaq istəyirəm. 90 illiyi ilə əlaqədar o, Prezidentin qonağı olub, akademikin İsmayıl adlı nəvəsi isə bu ölkənin neft sənayesində fəaliyyət göstərir.

İsmayıl İbrahimov təhsil ocağımızın maddi-texniki bazasının möhkəmləndirilməsinə böyük diqqət yetirirdi. Onun rektor olduğu dövrdə əməkdaşlar üçün yaşayış evləri, tələbə yataqxanasının və tədris-laboratoriya kompleksinin yeni korpusları, institutun iki tədris korpuslarını birləşdirən yeraltı keçid, üzgüçülük hovuzu və idman kompleksi inşa olunmuş, Nabranda tələbə və müəllimlər üçün yay istirahət bazası yaradılmışdır. İsmayıl İbrahimovun təşəbbüsü ilə Sumqayıt şəhərində tədris kompleksi inşa olunmuş və institutun filialı (hazırda onun bazasında Sumqayıt Dövlət Universiteti yaradılıb) açılmışdır.

Öz xidmətlərinə görə keçmiş Sovet İttifaqının ən yüksək ali mükafatlarını qazanan İsmayıl İbrahimov tədris sahəsində Sosialist Əməyi Qəhrəmanı və SSRİ Dövlət mükafatına layiq görülmüş yeganə azərbaycanlıdır. İsmayıl İbrahimovun genişmiqyaslı əmək fəaliyyəti müstəqil dövlətimiz tərəfindən də yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə Respublikanın sosial, ictimai və mədəni həyatında böyük xidmətlərinə görə ona Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilmiş, Milli Elmlər Akademiyasının 70 illik yubileyi münasibətilə, Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə o, "Şərəf" ordeni ilə təltif edilmişdir. İsmayıl İbrahimova verilən başqa fəxri adların, mükafatların, orden, medal və fərmanların sayı-hesabı yoxdur. Lakin 100 il ərzində misilsiz hünəri ilə qazanılan ən mühüm və qiymətli mükafat xalqın ona qarşı sevgisi, həmkarların minnətdarlığı, şagirdlərin ehtiramıdır. Akademik İsmayıl İbrahimovun rektor vəzifəsində əməyi, Elmlər Akademiyası və Respublika rəhbərliyində fəaliyyəti, onun bütün ömür yolu elmə və cəmiyyətə sədaqətli xidmətin parlaq nümunəsidir. O, indi də öz çoxsaylı məqalələri, çıxışları, görüşlərində öz simasında xeyirxahlıq, nəciblik, ədəb-ərkan nümunəsi göstərərək, gənc nəslin təlim-tərbiyəsi ilə məşğuldur.

Gözəl və müdrik şəxsiyyəti, görkəmli alimi əsrə bərabər yubileyi münasibəti ilə təbrik edərək, bizim üçün əziz olan insana şərəfli və bənzərsiz həyatının ikinci yüzilliyində sağlamlıq və xoşbəxt günlər arzulayırıq!

**Mustafa BABANLI,**
**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, professor.**